# Rayon təhsil işçilərinin sentyabr konfransı

## Qəbələ Rayon Təhsil Şöbəsinin müdiri Oqtay Hacıyevin məruzəsi

**Hörmətli qonaqlar !**
**Hörmətli konfrans iştirakçıları!**

Cəmiyyətin təhsil merdianında maraqlı ənənələrdən biri də müəllimlərin bü günkü sentyabr konfranslarının təşkili və keçirilməsidir. Dayanıqlı status qazanmış, təhsil sferasında mühüm sosial bir tələbə çevrilmiş bu tədbiri müəllimlər, təhsil müəssisələri, hər bir dərs ilinin əvvəlində ən ciddi hadisə, ən mühüm mərhələ kimi gözləyirlər. Ölkəmizdə sentyabr konfranslarına müəllimlər yeni dərs ili qarşısında məsləhət, məşvərət, istinad yeri kimi baxır, gələcək işlərinə uğurla başlamaq üçün bir stimul kimi yanaşırlar.

Bunun mahiyyətini dərindən başa düşən Qəbələ rayon təhsil işçiləri konfransa ciddi şəkildə hazırlaşaraq təhsilin bütün istiqamətlərində təhsil ocaqlarımızın rəhbərlərinə, müəllim və tərbiyəçilərə öz töhfələrini verməyə çalışırlar.

Ötən əsrin sonuncu illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi altında başlayan təhsil islahatı bu gün də uğurla davam etməkdədir. Son illər ölkəmizdə aparılan davamlı islahatlar dövlətimizin iqtisadi qüdrətinin əhəmiyyətli dərəcədə güclənməsinə imkan vermiş, dinamik sosial-iqtisadi inkişaf insanlarımızın rifah halının yaxşılaşmasını təmin etmiş, iqtisadi kapitalın insan kapitalına çevrilməsi istiqamətində möhtəşəm işlər görülmüşdür.

İslahatların, inkişafın artıq innovasiyalar mərhələsinə keşməsi insan kapitalı ilə bağlı bir çox məsələlərin öz həllini tapmasını, o cümlədən təhsilin dünya standartlarına cavab verməsini zəruri edir.

2014-2015-ci dərs ilində rayonda 68-ümumitəhsil məktəbi, o cümlədən 53 tam orta, 12 ümumi orta, 3 ibtidai məktəb fəaliyyət göstərmiş, 16131 nəfər şagird 1001 sinif komplektində birləşdirilmiş, onların təlim-tərbiyəsi ilə 2319-nəfər müəllim məşğul olmuşdur.

Rayon üzrə beş məktəbdənkənar tərbiyə müəssisəsi fəaliyyət göstərmiş, onlarda fəaliyyət göstərən 81 qrupa 1171 nəfər dərnək üzvü cəlb olunmuşdur.

Rayonun ümumtəhsil məktəblərində çalışan 2319 nəfər müəllimdən 420 nəfəri orta ixtisas təhsilli, 1899 nəfəri, yəni bütün müəllimlərin 81 faizi ali təhsillidir. Müəllimlərin əksəriyyətini, yəni 1742 nəfərini (75 faizini), qadınlar təşkil edir. Hazırda rayonun ümumitəhsil məktəblərindən 19-nun direktoru qadındır.

Müasir dövrdə şagirdlərin dərin, fundamental, keyfiyyətli təhsil almaları hər bir müəllimin şah əsəri olan dərs prosesindən keçir. Dərs müasir innovasiyaların mərkəzində dayanan, daim axtarıcılıq, yaradıcılıq tələb edən təlim texnologiyalarından biridir. Onun keyfiyyəti şagird marağı ilə bağlı olduğundan bu məsələ müəllimləri həmişə düşündürür.

Aparılan məqsədyönlü işlərin, keçirilən tədbirlərin nəticəsidir ki, rayonumuzda həm ibtidai sinif, həm də fənn müəllimləri içərisində öz işini dərindən bilən, pedaqoji səriştəsi, bilik və bacarığı ilə seçilən, ictimaiyyət arasında böyük nüfuz sahibi olan onlarla qabaqcıl müəllimlərimiz yetişmişdir. Biz bu gün onlardan bəzilərinin adlarını bu tribunadan iftixarla, qürur hissi ilə çəkirik.



Belə müəllimlərdən şəhər 4 saylı tam orta məktəbin dil-ədəbiyyat müəllimi Vəfa İbrahimovanı, Vəndam qəsəbə 1 saylı tam orta məktəbin riyaziyyat müəllimi, bir neçə beynəlxalq layihələrin iştirakçısı Zöhrə Mirzəyevanı, şəhər 5 saylı tam orta məktəbin riyaziyyat müəllimi, ən yaxşı müəllim müsabiqəsinin qalibi Nərminə Səfərovanı, şəhər 1 saylı tam orta məktəbin informatika müəllimi Alimə Məmmədhüseynovanı, şəhər 2 saylı tam orta məktəbin ruyaziyyat müəllimi, elektron lövhə ilə yaxşı işləmək qabiliyyətinə malik Natella Kərimovanı, təhsil portalındakı resurslardan səmərəli istifadə etmək qabiliyyəti ilə fərqlənən Dizaxlı kənd ümumi orta məktəbinin xarici dil müəllimi Aytən Vəliyevanı, Heydər Əliyev Mərkəzində keçirilən dərslərdə böyük fəallıq göstərən Məmmədağalı kənd tam orta məktəbinin Tarix müəllimi Elşad Abdurəhmanovu və sairlərini qeyd etmək olar.



Fotolar İ. Vəlizadənindir.

Fərəhli haldır ki, bu müəllimlərin içərisində çoxlu sayda gənc müəllimlər də vardır. Əlbəttə bu, bizi sevindirməyə bilməz.

**Hörmətli konfrans iştirakçıları!**

Ölkəmizdə 16 ili əhatə edən bir dövrdə keçirilən təhsil islahatının mühüm və aparıcı tərkib hissələrindən biri "Milli Kurikulum" un yaradılmasıdır.

Kurikulumla tədris prosesinə bildiyiniz kimi 2008-2009-cu dərs ilindən başlanılmış, yeni 2015-2016-cı dərs ilində isə artıq VIII siniflərdə bütün fənlər üzrə tədris prosesi kurikulumla aparılacaqdır. Bu sahədə həm ibtidai sinif, həm də fənn müəllimlərimiz böyük təcrübə toplamış, onlar kurikulumla tədrisin üstünlüklərini artıq bilir və həvəslə bu metodu öz işlərində tətbiq edirlər.

Kurikulumla tədris prosesini daha da dərinləşdirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Təhsilin inkişafı Dövlət Strategiyası"nda bu sahədə 3 istiqamət müəyyənləşdirilmişdir. Onlardan birincisi müasir məktəblərdə elektron tədris resurslarının əldə olunmasına nail olmaqdır. İkincisi təhsildə internet texnologiyalarından—Bloqlar, sosial şəbəkələr və saytlardan istifadə etmək, üçüncüsü isə milli elektron tədris resurslarının yaradılmasıdır.

Bu qeyd olunan tədris resurslarına malik olan məktəblərin şagirdləri dərsliklərə qapanıb qalmır, digər resurslardan da lazımi material əldə edirlər. Bu da bir tərəfdən şagirdlərin dərin fundamental bilik almalarına gətirib çıxarır,digər tərəfdən də onlarda axtarıcılıq qabiliyyətlərini, məntiqi düşünmə tərzini artırır.

**Hörmətli konfrans iştirakçıları!**

Tədris ili ərzində şöbədə 7 təhsilyanı şura iclası keçirilmiş və orada 25 məsələ müzakirə olunmuşdur. Bu zaman araşdırılan məsələlərin aktuallığı, konkret faktlara əsaslanması nəzərə alınmış və seçmə üsulla bir sıra məktəblərdə əsas fənlərin tədrisi vəziyyəti, həmçinin I-VII siniflərdə kurikulumla tədrisin gedişinin monitorinqi aparılmışdır. Nəticələr həm məktəblərdə, həm də təhsilyanı şura iclaslarında müzakirə edilmişdir.

Məlumat verim ki, rayon üzrə 2014—2015-ci dərs ilinin yekunlarına görə müvəffəqiyyət faizi 99,8 faiz, keyfiyyət göstəricisi isə 65,1 faiz olmuşdur. Biliyi qiymətləndirilən 15.833 şagirddən 4252 nəfəri «əla», 6055 nəfəri isə «4» və «5», qalanları isə «3» və «4» qiymətlərlə yuxarı siniflərə keçmişlər. IX və XI siniflər üzrə keçirilən buraxılış imtahanlarında şəhər 1, 2, 3, 4, Həmzəlli, Mirzəbəyli, Zalam, Zarağan 1, 2 saylı, Aydınqışlaq, Tüntül, Nohurqışlaq kənd, Vəndam qəsəbə 1, 2, 3 saylı, Bunud, Çarxana kənd tam orta məktəbləri xüsusilə fərqlənmişlər. Nic qəsəbə 2 və 4 saylı, Quşlar, Bılıx kənd tam orta və Qaş, Laza, Ziring kənd ümumi orta məktəblərində isə nəticələr rayonun ümumi göstəricisindən aşağı olmuşdur. Rayon üzrə 1452 nəfər ümumi orta təhsil kursu üzrə şəhadətnamə, o cümlədən 14 ədəd fərqlənmə şəhadətnaməsi, 1454 nəfər isə tam orta təhsil kursu üzrə attestat almışdır. Onlardan 5 nəfəri qızıl medala layiq görülmüşdür.

Keçən dərs ilində müəllim və şagirdlərimiz respublika səviyyəli müxtəlif müsabiqələrdə, yarışlarda, fənn olimpiadalarında, beynəlxalq səviyyəli layihələrdə uğurla iştirak etmişlər.

Artıq 2 ildir ki, şəhər 1 və şəhər 3 saylı tam orta məktəblərində ingilis dilinin intensiv tədrisi ilə bağlı pilot layihə həyata keçirilir. Bu layihədə fərqlənən şəhər 3 saylı tam orta məktəbin ingilis dili müəllimi Aygün İsmayıl yüksək nəticələrinə görə Böyük Britaniyaya təlim kurslarına dəvət almış və 2015-ci ilin mart ayında Təhsil Nzirliyinin xətti ilə həmin təlimlərdə iştirak etmişdir.

Vəndam qəsəbə 1 saylı tam orta məktəbin riyaziyyat müəllimi Zöhrə Mirzəyeva 2015-ci ilin may ayında qardaş ölkə, Türkiyənin İstanbul şəhərində keçirilən təlim texnologiyalarına həsr olunmuş konfransa dəvət almış və konfransda elmi-metodik məqalə ilə çıxış etmişdir. Konfransdan sonra keçirilən treyniqlərdə müxtəlif nominasiyalar üzrə Zöhrə Mirzəyeva 4 sertifikat almşdır.

Dizaxlı kənd ümumi orta məktəbin ingilis dili müəllimi Aytən Vəliyeva təhsil portalında yerləşdirilmiş resurslardan istifadə etməklə qurulan ən yaxşı dərs modeli nominasiyasında respublika üzrə keçirilən 5-ci müsabiqədə qalib gələrək Təhsil Nazirliyinin Fərqlənmə diplomuna layiq görülmüşdür.

**(Ardı 4-cü səhifədə).**